# SUALLARA CAVAB

Akif **MƏMMƏDOV,**

pedaqoji elmlər namizədi

**Sual: Xahiş edirəm, asağıdakı cümlələri üzvlərinə görə təhlil edəsiniz:**

**1) Sən indi əvvəlkindən daha gözəlsən.**

**2) Sənubər hər bahar qızıl lalələrlə örtülən düzənliyə gələrdi.**

***T. Nəsibova, Bakı şəhəri***

**Cavab*:*** Birinci cümlədə "gözəlsən" - sifətlə ifadə olunan sadə ismi xəbər, "sən" - şəxs əvəzliyi ilə ifadə olunan sadə mübtəda, "indi" - zaman zərfliyi ilə ifadə edilən sadə zaman zərfliyidir. Burada nisbətən "dolaşıqlıq" yaradan "əvvəlkindən" sözüdür, çünki ona cümlə üzvünün sualını vermək bir qədər namünasibdir: nədən gözəlsən? Əslində isə burada qeyri-adi heç nə yoxdur. Məlumdur ki, sual cümlə üzvlərini müəyyənləşdirmək üçün köməkçi vasitədir. Bəzi hallarda bu heç mümkün olmur (xüsusiləşmiş zərfliklərdə, "var", "yox" tipli sözlərlə ifadə olunan xəbərlərdə və s.). Əslində "əvvəlkindən" sözü morfoloji baxımdan zərfdən düzələn sifətdir (əvvəlki). Bu cümlədə çıxışlıq hal şəkilçisi qəbul edərək isimləşmiş (əvvəlki halından - əvvəlkindən) və vasitəli tamamlıq vəzifəsində işlənmişdir.

İkinci cümlədə isə vəziyyət başqadır. Cümləni iki cür başa düşmək olar: ifadə olunan fikirdən asılı olaraq "hər bahar" sözü həm "örtülən" feili sifətinə (hər bahar qızıl lalələrlə örtülən), həm də "gələrdi" feili sifətinə (hər bahar gələrdi) aid ola bilər. Bu səbəbdən də cümləni iki cür təhlil etmək mümkündür: birinci halda – "gələrdi" - xəbər, "Sənubər" - mübtəda, "düzənliyə" - yer zərfliyi, "hər bahar qızıl lalələrlə örtülən" (hansı?) - feili sifət tərkibi ilə ifadə olunan təyindir. Cümlənin ikinci anlamında isə vəziyyət dəyişir. "Hər bahar" "gələrdi" feili xəbərinə aid olduqda tərkibdən çıxır və cümlənin zaman zərfliyi olur, "qızıl lalələrlə örtülən" isə təyin yerində işlənir.

Əslində sintaktik təhlil üçün belə - iki cür anlaşılan cümlələr təqdim etmək düz deyil. Cümlədəki fikir aydın olmayanda linqvistik təhlildə də dolaşıqlıq yaranır.

**Sual. “Böyüklər olmayan yerdə iş getməz” ciimləsinin xəbəri hansıdır: “getməz”, yoxsa “iş getməz”?**

***S. Məmmədova, Bakı şəhəri***

***Cavab:*** Mübtədanın ən mühüm əlaməti onun cümlədə fikir özülünü - haqqında danışılanı bildirməsidir. Burada “iş” haqqında danışılır. Qalan iki üzv də bilavasitə onun haqqında məlumat verir: iş harda getməz? - böyüklər olmayan yerdə (yer zərfliyi), iş böyüklər olmayan yerdə nə etməz? - getməz (xəbər), böyüklər olmayan yerdə nə getməz? - iş (mübtəda). Cümlədə “getməz” sözü məcazi mənada işləndiyindən ona sual vermək münasib səslənmir. Əslində isə bu söz “baş tutmaz”, “yerinə yetirilməz” sözlərinin sinonimidir və cümlədəki xəbəri (“getməz”) bunlarla əvəz etdikdə “iş” sozünün mübtəda olması daha aydın görünür: “Böyüklər olmayan yerdə iş baş tutmaz (yerinə yetirilməz). Nə baş tutmaz (yerinə yetirilməz)? - iş.

**Sual: “Dərsə gecikmə, yoxsa, danlanarsan” - cümləsindəki “yoxsa” sözü morfoloji və sintaktik mövqeyinə görə nədir?**

***S. İmanov, Əli Bayramlı şəhəri***

**Cavab***:* Morfoloji baxımdan “yoxsa” – “-sa” şərt şəkilçisi ilə işlənən inkar ədatıdır. Sintaktik cəhətdən isə bu cümlədə söz-cümlə yerində işlənmişdir, “yoxsa” sözü bu mövqeyində “dərsə geciksən” cümləsinin əvəzində işlənmişdir. Məlumdur ki, söz-cümlələr ən çox ədat, modal söz və nidalarla ifadə olunur və bütöv cümlənin (özündən əvvəlki cümləyə müvafıq olaraq) yerində işlənir, üzvlərinə görə təhlil edilmir. Verilən nümunədə də “yoxsa” sözü bu əlamətləri daşıyır; ədatla ifadə olunub, üzvlərinə görə təhlil edilə bilməz və əvvəlki cümləyə əsasən “əgər dərsə geciksən” cümləsinin əvəzində işlənmişdir: “Dərsə gecikmə, əgər dərsə geciksən, danlanarsan”.

***Sual: “Mən özüm günahkaram “ cümləsinin mübtədası nə ilə ifadə olunmuşdur? “Mən özüm” birləşməsini ikinci növ təyini söz birləşməsi hesab etmək olarmı?***

***M. Hadıyev, Bakı şəhəri***

***Cavab:*** Yox. Verilən cümlənin mübtədası yerində işlənən bu birləşmə ilk baxışda formaca II növ təyini söz birləşməsinə oxşasa da (ikinci tərəfdə mənsubiyyət şəkilçisinin olması, birinci tərəfdə yiyəlik hal şəkilçisinin bərpası - mənim özüm və s.), belə deyil. Bu

birləşmə aşağıdakı xüsusiyyətlərinə görə II növ təyini söz birləşməsindən fərqlənir:

a) II növ təyini söz birləşməsinin birinci tərəfı heç vaxt şəxs əvəzlikləri ilə ifadə oluna bilməz.

b) II növ təyini söz birləşməsinin ikinci tərəfındə yalnız III şəxsin mənsubiyyət şəkilçisi işlənir, "mən özüm" tipli birləşmələri isə bütün şəxslərdə işlətmək olur: mən özüm, biz özümüz, sən özün, siz özünüz, o özü, onlar özləri.

c) II növ təyini söz birləşməsi mübtəda yerində işləndikdə bütövlükdə xəbərə bağlanır. Burda isə birləşmənin hər tərəfı eyni qaydada xəbərlə uzlaşır: Mən günahkaram; Özüm günahkaram.

ç) II növ təyini söz birləşməsi hallanaraq cümlənin müxtəlif üzvü yerində də işlənə bilir. (Dəniz kənarına getdilər; Məktəb direktorunu çağırdılar) "Mən özüm" birləşməsini hallandırdıqda birləşmə "pozulur" və hər tərəf ayrı üzv kimi işlənir. Məsələn: "Mən özümə cavabdehəm" (mən - mübtəda, özümə - tamamlıq)

d) II növ təyini söz birləşməsi cümlənin müxtəlif üzvü yerində işləndiyi halda, "mən özüm" tipli birləşmə cümlədə yalnız mübtəda və xəbər (Günahkar mən özüməm) yerində işlənə bilir.

e) II növ təyini söz birləşməsinin I tərəfı II tərəfini təyin etdiyi halda, burada ikinci tərəf birinci tərəfı konkretləşdirir. daha doğrusu. I tərəf əsas, II tərəf asılı tərəf kimi işlənir. Ona görə də bu birləşmələrdə "Qayıdış əvəzlikləri subyekti daha konkret və qabarıq nəzərə çarpdırmaq məqsədi ilə şəxs əvəzlikləri ilə birlikdə işlənir. Bu zaman onlar cümlənin mürəkkəb üzvü kimi çıxış edir" ("Müasir Azərbaycan dili", II hissə, 1980, səh. 170)

Bu tip birləşmənin adına gəldikdə, dilçilik ədəbiyyatında onlar ismi birləşmənin bir növü olan əlavəli birləşmə adlandırılır: "Əlavəli birləşmələrdən bəhs edərkən həmin birləşmələrə uyğun gələn, lakin müəyyən xüsusiyyətlərinə görə onlardan ayrılan mən özüm, sən özün... kimi birləşmələr də diqqəti cəlb edir". (Y. Seyidov "Azərbaycan dilində söz birləşmələri", 1992, səh. 202).

Orta məktəb şagirdinə bu birləşmələri təyini söz birləşmələrinə daxil olmayan ismi birləşmələr (və yaxud qeyri-təyini söz birləşmələri) kimi təqdim etmək daha münasibdir.

***"Azərbaycan dili və ədəbiyyatı tədrisi", 2004, №3***